# Sabitlik yolunda qəti addımlar



***1998**-ci il 18 oktyabr tarixi Azərbaycan xalqının yaddaşında dərin iz buraxmış əlamətdar bir gün kimi qeyd olunur. Bu tarixdə Azərbaycanın ümummilli lideri Heydər Əliyev ikinci dəfə prezident seçildikdən sonra and içdi. Bu andiçmə mərasimi müstəqil Azərbaycan tarixində böyük siyasi əhəmiyyətə malikdir. Həmin dövr Heydər Əliyevin rəhbərliyi altında ölkənin milli dövlətçilik ənənələrinin bərpası və möhkəmləndirilməsi istiqamətində həyata keçirilən böyük islahatlarla yadda qalıb.*

1993-cü ildə ölkənin ciddi siyasi və iqtisadi böhran içində olduğu bir vaxtda Heydər Əliyev ilk dəfə prezident seçildi. Həmin dövrdə Ermənistanın Azərbaycana qarşı təcavüzü, keçmiş "Dağlıq Qarabağ" münaqişəsi, iqtisadi çöküş, daxili siyasi gərginlik və xaos ölkəni təhlükə altına salmışdı. Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə bu problemlərin həlli üçün strateji addımlar atılmağa başlandı. Onun rəhbərliyi altında 1993-1998-ci illərdə ölkədə sabitlik bərpa edildi, dövlətçilik prinsipləri yenidən quruldu və ən əsası Azərbaycanın müstəqilliyi qorundu. Bu dövrdə Prezidentin həyata keçirdiyi bir sıra islahatlar, o cümlədən "Əsrin müqaviləsi" neft kontraktının imzalanması, iqtisadiyyatın bərpası və xarici siyasətdə balanslı yanaşmalar ölkənin inkişafına təkan verdi. Nəticədə Azərbaycan regionda və beynəlxalq arenada etibarlı bir tərəfdaş kimi qəbul olundu.

1998-ci ildə keçirilən prezident seçkiləri Heydər Əliyevin xalq arasında böyük nüfuzunun təsdiqi oldu. Seçkilərdə iştirak edən beş əsas namizədin içərisində Heydər Əliyev 76,1 faiz səs toplamaqla növbəti dəfə qalib gəldi. Bu seçkilər Azərbaycan tarixində mühüm yer tutur, çünki Heydər Əliyev Azərbaycan xalqının böyük etimadını qazandı və onun rəhbərliyi ölkə üçün uğurlu oldu. Beynəlxalq müşahidəçilər seçkilərin şəffaflığını və demokratik prinsiplərə uyğunluğunu qeyd etdilər. Bu seçkilərin nəticəsi olaraq Heydər Əliyev ölkə üçün prioritet islahatları davam etdirmək imkanı qazandı, ölkənin uzunmüddətli sabitliyini və müstəqilliyini möhkəmləndirdi.

Prezident nitqində Azərbaycanın suverenliyinin qorunması, ərazi bütövlüyünün təmin edilməsi və xalqın rifahının yüksəldilməsi sahəsində fəaliyyətini davam etdirəcəyini vurğuladı və həmçinin ölkənin demokratik dəyərlərinin inkişafına və islahatların dərinləşdirilməsinə böyük önəm verəcəyini bildirdi.

Andiçmə mərasimi Bakıda və yerli, xarici nümayəndələrin, o cümlədən dövlət başçıları, diplomatlar və beynəlxalq təşkilatların təmsilçilərinin iştirakı ilə təntənəli şəraitdə keçirildi. Bu mərasim Azərbaycanın beynəlxalq arenada artan nüfuzunu və dünya siyasətindəki yerini bir daha təsdiqlədi.

Andiçmədən sonra Heydər Əliyev ölkədə siyasi, iqtisadi və sosial islahatları dərinləşdirməyə başladı. Onun rəhbərliyi ilə ölkənin iqtisadi siyasəti neft strategiyası üzərində quruldu. 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi"nin nəticələri artıq 1998-ci ildə özünü göstərməyə başladı və Azərbaycan iqtisadi cəhətdən regionun liderlərindən birinə çevrildi. Bu müqavilə Azərbaycan üçün böyük iqtisadi dividendlər gətirdi və ölkənin müstəqilliyinin möhkəmləndirilməsində mühüm rol oynadı.

Ulu öndər Heydər Əliyevin ikinci prezidentlik dövrü Azərbaycanın müstəqillik və beynəlxalq arenada mövqeyinin möhkəmləndirilməsi üçün əhəmiyyətli mərhələ oldu. Bakı-Supsa və Bakı-Tbilisi-Ceyhan neft kəmərlərinin tikintisi kimi layihələr ölkənin enerji siyasətində böyük addımlar idi. Avropa Şurasına tamhüquqlu üzv olmaqla Azərbaycanın Avropa ilə inteqrasiyasını dərinləşdirdi, eyni zamanda ikinci özəlləşdirmə proqramı iqtisadiyyatda mühüm dəyişikliklərə səbəb oldu. Dünya Azərbaycanlılarının I qurultayı isə xaricdə diasporumuzun formalaşdırılmasında tarixi əhəmiyyət daşıdı. Bu cür böyük layihələr və addımlar Azərbaycanın strateji mövqeyini gücləndirərək, regionda və beynəlxalq müstəvidə vacib aktora çevrilməsini təmin etdi.

Prezident Heydər Əliyevin daxili siyasəti isə xalqın rifahının yüksəldilməsinə və sosial ədalətin təmin edilməsinə yönəlmişdi, təhsil, səhiyyə, infrastruktur layihələrinə böyük diqqət ayırırdı və dövlət idarəçiliyində islahatlar həyata keçirirdi. Dövlətin idarəçiliyində şəffaflıq və məsuliyyətin artırılması üçün hüquqi islahatlar və yeni qanunvericilik bazası formalaşdırıldı. Bundan əlavə, ordu quruculuğu və müdafiə potensialının gücləndirilməsi istiqamətində də vacib addımlar atıldı.

Ulu öndərin ikinci prezidentlik dövründə Azərbaycanın xarici siyasətində çoxvektorlu və balanslı yanaşma gücləndirildi. O həm Qərb, həm də qonşu dövlətlər, xüsusilə də Rusiya və İranla qarşılıqlı əməkdaşlıq siyasəti yürüdürdü. Xarici siyasətində ən böyük nailiyyətlərdən biri də Azərbaycanın beynəlxalq təşkilatlarla əlaqələrinin genişlənməsi, o cümlədən BMT, ATƏT və Avropa Şurası ilə əməkdaşlığın gücləndirilməsi oldu. 1998-ci ildən sonra Azərbaycanın beynəlxalq nüfuzu daha da artdı və ölkə beynəlxalq iqtisadi layihələrin həyata keçirilməsində mühüm rol oynamağa başladı. Məsələn, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsi və enerji layihələrindəki rolu regionda Azərbaycanın lider mövqeyini təmin etdi.

Ümummilli lider Heydər Əliyev ölkənin inkişafı və sabitliyi üçün növbəti mərhələyə qədəm qoydu. Onun siyasi kursu Azərbaycanın beynəlxalq arenada mövqeyini möhkəmləndirdi və daxili siyasi sabitliyi təmin etdi. Heydər Əliyevin liderliyi ilə ölkədə həyata keçirilən islahatlar və iqtisadi inkişaf istiqamətində atılan addımlar Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb etdi və ölkənin müstəqillik və suverenliyinin qorunmasında mühüm rol oynadı.

**Tacir SADIQOV,**
**"Respublika".**